**Pavel Herçinski: Aİ-nin yüksək səviyyəli nümayəndə heyəti COP29-da iştirak edəcək**

Avropa İttifaqı (Aİ) iqlim dəyişikliyi ilə bağlı problemlərin həllinə böyük önəm verir. Azərbaycanın COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etməsi çox yaxşı haldır. Aİ-nın yüksək səviyyəli nümayəndə heyəti COP29 tədbirində iştirak edəcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Avropa İttifaqının Gürcüstandakı səfiri Pavel Herçinski söyləyib. Onun sözlərinə görə, Avropa İttifaqı bütün planet üçün vacib olan məsələlərin həllinə kömək göstərməyə çalışacaq.

Səfir belə bir mötəbər tədbirə - COP29-a ev sahibliyi etdiyi üçün rəsmi Bakıya təşəkkür edib və uğurlar arzulayıb.

**Xətayi Əzizov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tbilisi**

**AZƏRTAC**
**2024, 3 noyabr**